# Ümummilli lider Heydər Əliyevin ədəbiyyat strategiyasında sovet dövrü Azərbaycan ədəbiyyatının yeri

**Təyyar Salamoğlu**
Filologiya elmləri doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: tayyarsalamoglu@gmail.com

**Annotasiya.** Məqalədə Ümummilli lider Heydər Əliyevin ədəbiyyat strategiyasının bəzi mühüm cəhətlərinə aydınlıq gətirilir. Eyni zamanda bu gün daha çox mübahisə obyektinə çevrilən sovet dövrü Azərbaycan ədəbiyyatına baxış sistemi açıqlanır. Ulu öndərin bu dövrün ədəbiyyatına tarixilik prinsipi ilə yanaşılma zərurəti ilə bağlı mülahizələri metodoloji başlanğıc kimi qəbul edilir. Heydər Əliyevin Azərbaycan xalqının milli istiqlal düşüncəsinin formalaşmasında oynadığı və oynaya biləcəyi rola verdiyi qiymətlər sovet dövrü ədəbiyyatının ümumən götürəndə müasirliyini şərtləndirən amil kimi şərh edilir.
**Açar sözlər:** strategiya, tarixilik, metodoloji başlanğıc, müasirlik, milli istiqlal

**Məqalə tarixçəsi:** göndərilib – 21.02.2023; qəbul edilib – 15.03.2023

# The place of Soviet-era Azerbaijani literature in National Leader Haydar Aliyev's Literary Strategy

**Tayyar Salamoglu**
Doctor of Philological Sciences
Azerbaijan State Pedagogical University
E-mail: tayyarsalamoglu@gmail.com

**Abstract.** The article analyzes some important aspects of the literary strategy of the National Leader Haydar Aliyev. It clarifies the attitude toward Soviet-era Azerbaijani literature, which has become an object of big controversy. National Leader Haydar Aliyev's views on the need to approach the literature of this period with the principle of historicity are taken as a methodological starting point. Haydar Aliyev's assessment of the role Soviet-era literature played and could have played in the formation of the thought of national independence of the Azerbaijani people is interpreted as a factor defining in general the modernity of this period's literature.
**Keywords:** strategy, historicity, methodological starting point, modernity, national independence

**Article history:** received – 21.02.2023; accepted − 15.03.2023

## Giriş / *Introduction*

Ümummilli liderimiz Heydər Əliyev istər sovet dövründə Azərbaycanda rəhbər vəzifələrdə çalışdığı vaxtlarda, istər respublikaya rəhbərlik etdiyi zamanlarda, istərsə də müstəqil dövlətimizin başçısı olarkən xüsusi diqqət yetirdiyi, onun üçün prioritet olan sahələrdən biri də mədəniyyət idi.

Ümummilli lider milli tərəqqini mədəni inkişafdan ayrı təsəvvür etmir, mədəni inkişafı milli varlığın irəliyə doğru hərəkətində əsas təkanverici amillərdən biri sayırdı. Bu nöqteyi-nəzərdən o, Azərbaycan xalqının ədəbi-bədii sərvətlərinə müstəsna dərəcədə böyük dəyər verirdi.

Ulu öndərin geniş dünyagörüşü, milli ədəbi prosesin təkamül yoluna dərindən bələdliyi onun milli ədəbiyyatın inkişaf yolunu tarixilik prinsipi əsasında qiymətləndirməsini şərtləndirirdi. Məhz tarixilik prinsipi ilə ədəbi prosesin hərəkətində yanaşmaları ona sovet dövründəki ədəbiyyatımıza nihilist baxışları təkzib etməyə və doğru qənaətlərə gəlməyə imkan verirdi. O, ədəbiyyat tariximizdə Süleyman Rüstəmin, Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rəhimovun, Mir Cəlalın və b. yerini, xidmətlərini dəqiq təsvir edir, milli ictimai düşüncənin keçən əsrin əvvəllərindəki sağlam ənənələrinin onların yaradıcılığında özünəməxsus şəkildə, təbii ki, tarixi şəraitin imkanları çərçivəsində yaşadıldığını yüksək dəyərləndirirdi.

## Əsas hissə / *Main Part*

Məlumdur ki, bədii irsi müstəqillik dövrünün ictimai düşüncəsində müxalif mövqelərə də yol açan, bədii fikir tariximizdə mövqeyinə kölgə salmağa can atanların da olduğu sənətkarlarımızdan biri Səməd Vurğundur. Heydər Əliyevin Səməd Vurğun irsinə verdiyi qiymət öz obyektivliyi və elmi dəyəri, milli məzmunu baxımından çağdaş dövrün nihilistlərinə ən tutarlı cavabdır: "Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir. Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir... Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir.

Səməd Vurğun şeirinin böyüklüyü, eyni zamanda, gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı" [3, s.30-31].

Heydər Əliyevin qiymətləndirmələrinin ən əsas dəyəri konkret tarixi şəraitdən çıxış edərək mülahizə yürütməsində, sənətkarın yaşayıb fəaliyyət göstərdiyi dövrü, mühiti, bu dövr və mühitlərin "çərçivələri"ni nəzərə almasında idi. Məhz tarixilik prinsipi ona "sosrealizmin qəti normativləri" çərçivəsində – 30-40-cı illərdə yaşayıb-yaradan S.Rüstəm, R.Rza, Mir Cəlal, S.Rəhimov və başqalarının yaradıcılığına obyektiv baxış ifadə etməyə imkan verirdi.

Heydər Əliyev B.Vahabzadəni, X.Rzanı dissident hesab edir və deyirdi: "Yaxşı ki, siz dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhvali-ruhiyyəni qaldıra bilməzdiniz. Əgər Bəxtiyar Vahabzadə dissident olmasaydı, Azərbaycan xalqının, gənclərinin şüuruna təsir edə bilməzdi. Əgər Xəlil Rza dissident olmasaydı, onun əsərlərinin təsiri güclü olmazdı" [3, s.218-219]. Maraqlı burasıdır ki, B.Vahabzadənin, X.Rzanın dissidentliyi haqqında qənaəti ümummilli lideri 30-40-cı illərin ədəbiyyatı ilə bağlı bədbin notlara gətirib çıxarmır. Çünki Heydər Əliyev Mir Cəlalın, B.Vahabzadənin, S.Vurğunun və X.Rzanın fərqli tarixi şəraitlərdə fəaliyyət göstərdiyinin fərqinə varır və məsələlərə məhz bu prizmadan dəyər verirdi. Deməliyik ki, Heydər Əliyevin 30-40-cı illər və 50-ci illərin birinci yarısında yazıb-yaradan sənətkarların yaradıcılığına münasibəti bu mərhələnin ədəbiyyatına baxış üçün müstəqillik dövrünün ədəbiyyatşünaslığına metodoloji yanaşma prinsiplərinin açarını verir və əslində bu dəyərləndirmələr bütöv bir elmi-nəzəri konsepsiya səciyyəsi daşıyır: "Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı?

İndi kim hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər, onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar ağır dövrdə o

xətalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm" [3, s.308].

Ulu öndər bizim ədəbiyyatımızı nə üçün S.Vurğunsuz təsəvvür edə bilmirdi? H.Əliyevin S.Vurğun səxsiyyətini və poeziyasını idrakında və dəyərləndirməsində bu sualın son dərəcə aydın və məntiqli cavabını tapırıq. Onun dəyərləndirmələrinin əsas tezisləri aşağıdakılardır: "Səməd Vurğunun bütün əsərləri Vətənə məhəbbətlə, Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə doludur. Səməd Vurğunun şəxsiyyətini ifadə edən əsərlərinin əsas mənası və məzmunu bax, budur. ...Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir... Səməd Vurğun o vaxt bizim hamımız üçün nümunə - xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlikdə nümunə idi" [3, s.33-35].

Ulu öndər bizim ədəbiyyatımızı nə üçün S.Rüstəmsiz təsəvvür edə bilmirdi? Məsələni mahiyyət müstəvisinə çıxaranda tam aydın olur ki, o, milli ictimai düşüncənin irəliyə doğru hərəkəti, milli vətəndaşlıq düşüncəsinin formalaşdırılması baxımından S.Rüstəm şeirindəki tam sağlam nüvəni görür və böyük sənətkarın yaradıcılığına məhz bu prizmadan dəyər verməyin vacibliyini önə çəkirdi: "Süleyman Rüstəmin şeirlərini, başqa əsərlərini oxuyarkən, dinləyərkən insan hər dəfə heyran olur ki, bu insanda nə qədər yüksək şeir sənəti, dil zənginliyi vardır. Bunu hər adam edə bilməz və bu, hər adama məxsus deyildir. Süleyman Rüstəmin əsərlərinin ana xətti vətənpərvərlik, vətənə, millətimizə, xalqımıza sədaqətdir".

Heydər Əliyevin ədəbiyyat konsepsiyasında ədəbiyyatın tarixə münasibətinə müstəqillik dövrünün siyasi-elmi düşüncəsi ilə baxışı öndədir. Ümummilli lider milli ictimai düşüncənin inkişafında sənətin tarixi mövzuya müraciətinin perspektivlərini dəqiqliklə şərh edir və bu məsələyə xüsusi diqqət ayırırdı. Bu diqqət, ilk növbədə, siyasi amillərlə şərtlənirdi və Azərbaycan xalqının tarixinə bədxah, inkarçı, təhrifçi mövqedən yanaşanları yerində oturtmaq məqsədi daşıyırdı. Ümummilli lider deyirdi: "Biz tariximizi, keçmişimizi unutmamalıyıq. Onsuz da bizim tariximizi təhrif edənlər, düşmənlər çox olubdur. Biz içimizdən buna imkan verməməliyik... Biz tariximizi, millətimizi belə adamlardan qorumalıyıq" [3, s.310]. Tariximizin, keçmişimizin unudulmaması ilə bağlı, tariximizi bədxahların münasibətindən qorumağın zərurəti haqqında onun qəti mövqe ortaya qoymasının məntiqi nədən ibarət idi? Bu sözlərin fəlsəfəsi nədən ibarət idi? Ölkə başçısı tariximizin, keçmişimizin qorunmasında ədəbiyyatın, ədəbiyyat və sənət adamlarının üzərinə düşən vəzifələrdən danışırdı. Ədəbiyyatımızın tariximizə münasibətinin milli məzmunundan danışırdı və bu istiqamətdə ədəbiyyatın gerçəkləşməsi lazım gələn funksiyalarını dilə gətirirdi. Bu gün heç kəsdə şübhə doğurmur ki, "ədəbiyyatın tarixi xalqa öz etnokulturoloji kökləri üzərində dayanmaqda mənəvi-ideoloji kömək göstərməlidir" [2, s.13]. Fikrimizcə, ədəbiyyat məhz bu funksiyası ilə antimilli rejimlərə müqavimət hərəkatının iştirakçısına çevrilir, xalqın tarixi varlığının, yaşarı ənənələrinin qorunmasında, gələcək nəsillərə ötürülməsində ən mühüm amil olur. Ona görə də "ədəbiyyatda ehtiva olunmuş tarix ən səmimi, ən humanist tarixdir" (N.Cəfərov) və deməli, ən düzgün, ən etibarlı tarixdir.

Bu nöqteyi-nəzərdən Ulu öndər xalqımızın tarixinin obyektiv şəkildə öyrənilməsində rol oynaya biləcək əsərlərə xüsusi maraq göstərir, onların müəlliflərinə xüsusi həssaslıqla yanaşırdı. O, hesab edirdi ki, ədəbiyyat öz kütləviliyi ilə və ictimai şüura təsir imkanları ilə müstəsna əhəmiyyət kəsb edir və tariximizin öyrənilməsində bu kütləvilik mühüm şərtdir. H.Əliyev düşünürdü ki, tariximizin vaxtı ilə təhrif olunan və müstəqillik dövrünün tarixşünaslığında düzgün elmi həllini tapan çox mühüm məsələlərinin tarix səhifələrindən ədəbiyyat səhifələrinə keçidi milli varlığımız haqqında həqiqətlərin xalqımıza daha asan, daha kütləvi və daha aydın şəkildə çatdırılmasına ciddi vəsilə ola bilər. Bu mənada o, ədəbiyyatın gücündən səmərəli şəkildə istifadəni tövsiyə edirdi. Heydər Əliyev üzünü söz-

sənət xadimlərinə tutaraq deyirdi: “Tarixçilər, bizim salnaməçilər bunları düzgün yazmağa başlayıblar. Ancaq bilirsiniz, indi hər bir adamın o tarix kitablarını oxumağa nə imkanı var, nə vaxtı. Bir də ki, biri oxuyur, o birisi oxuya bilmir. Bu baxımdan teatr, kino çox təsirli bir vasitədir. Tariximizin bu dövrü keçmişdə təhrif olunubdur” [3, s.147].

Vaxtilə Ə.Ağaoğlu “Üç mədəniyyət” əsərində yazırdı: “Bu surətdə teatr, ümumiyyətlə, ictimai amillərin ən əsaslısı olan dilin, əxlaqın, ortaq duyğuların gəlişməsinə, yüksəlmə və birləşməsinə xidmət edərək, fikir və hiss birliyini saxlayar. İctimai və tarixi olayları mövzu seçən teatrlar isə, millət şüurunun doğmasında önəmli bir amil olurlar” [1, s.114]. Böyük mütəfəkkirin birinci müstəqillik dövründə dilə gətirdiyi bu sözlər teatrın ictimai həyatda oynadığı rolu düzgün işıqlandırmaqla bərabər, ümummilli liderin ikinci müstəqillik dövründə teatra olan marağının, teatrla bağlı mülahizələrinin sosial məzmununa işıq salır. Aydın olur ki, eynən Ə.Ağaoğlu kimi, ümummilli lider də teatra “millət şüurunun doğmasında önəmli bir amil” kimi yanaşır. Onun “Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecə”dəki, “Fərhad və Şirin” (yeni quruluşda), İlyas Əfəndiyevin “Hökmdar və qızı”, Bəxtiyar Vahabzadənin “Hara gedir bu dünya?!” əsərlərinin tamaşalarına baxdıqdan sonra yaradıcı kollektivlə görüşlərindəki çıxışları bunun əyani sübutudur. Bu mənada “Hökmdar və qızı” tamaşası ilə bağlı söylədiyi mülahizələr teatrın milli ictimai şüurun formalaşmasında oynadığı rola dair mövqeyini daha əhatəli şəkildə ortaya qoymaq baxımından səciyyəvidir. H.Əliyev İ.Əfəndiyevin simasında, ilk növbədə, öz ölməz əsərləri ilə Azərbaycan xalqının tarixini ədəbiyyat dili ilə yazan sənət adamını görür və bunu çox yüksək qiymətləndirirdi. Son illərin ədəbiyyatşünaslığında belə bir həqiqət özünə yer alır ki, “Azərbaycan xalqının “ədəbiyyatda ehtiva olunmuş... ən səmimi, ən humanist tarixi”ni yazanlardan biri də görkəmli nasir və dramaturq İ.Əfəndiyevdir” [4, s.218]. Maraqlıdır ki, ədəbiyyatşünaslığın bu qənaəti Ümummilli liderin müstəqillik dövrünün ilk illərində söylədiyi mülahizələrindən güc alaraq meydana çıxmışdır. Heydər Əliyev o zaman bu istiqamətdəki qənaətini aşağıdakı kimi ifadə etmişdi: “İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir” [3, s.141].

Heydər Əliyev İlyas Əfəndiyevin tariximizə müraciətlərini, birinci halda, tariximizi xalqa sevdirdiyi üçün, ikinci halda, ideoloji təsirlərin altında daim təhrif edilən tariximizi düzgün əks etdirdiyi üçün, üçüncü halda, bizi tariximizin ibrət dərslərindən nəticə çıxarmağa sövq etdiyi üçün təqdir edirdi. İ.Əfəndiyevin yaradıcılığına hərtərəfli bələdliyi və eyni zamanda “Hökmdar və qızı” əsərinin tamaşasından aldığı zəngin təəssürat və qənaətlərə söykənərək ümummilli lider məsələnin bu tərəfini belə qiymətləndirirdi: “Bu da ona görədir ki, birincisi – əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İ.Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir. Bunlar indi açılıbdır” [3, s.141]. Heydər Əliyev ədəbiyyat və teatrda xalqımızın tarixini xalqa çatdırmağın ən optimal yolunu görürdü. İ.Əfəndiyev yaradıcılığına, “Hökmdar və qızı” tamaşasına xüsusi marağı da buradan irəli gəlirdi. Uzun illər içində yaşadığımız rejimin acı gerçəklərini dəqiq bilən ulu öndər tariximizin “keçmişdə təhrif olunduğu”nu dilə gətirir və bundan nəticə çıxarmağın vacibliyini irəli sürür, tariximizin düzgün öyrənilməsi istiqamətində əməli fəaliyyətimizi sürətləndirməyin vacibliyi fikrini önə çəkirdi. Heydər Əliyev tamamilə doğru düşünürdü ki, tariximiz haqqında həqiqətlərin, müstəqillik dövrünün tarixi araşdırmalarında özünə yer almış həqiqətlərin xalqa, millətə çatdırılmasının ən effektiv və ən sürətli yolu ədəbiyyat və mədəniyyət sahəsidir. O, bu işdə kinonun, teatrın və ədəbiyyatın gücünü dəqiq təsəvvür edir və buna görə də üzünü ədəbiyyat və mədəniyyət xadimlərinə tuturdu: “Ona görə də indi heç kəsi günahlandırmaq lazım deyil. Amma, eyni zamanda, bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsi ilə indi həqiqəti xalqa bildirmək lazımdır. Həqiqətin xalqa belə çatdırılması daha təsirlidir, xalq bunu qavraya bilir” [3, s.142].

Ulu öndərə yaxşı məlum idi ki, “dindən sonra bir millətin əxlaqi görüşləri üzərinə təsir edəcək” ən önəmli amil “o millətin sahib olduğu ədəbiyyatla fəlsəfə əsərləridir” [1, s.71]. Buna görə də Heydər Əliyev “Hökmdar və qızı”na, eləcə də ədəbiyyatımızın bu tipli nümunələrinə ancaq tarixin “ədəbiyyat dili” ilə ifadəsi kimi baxmırdı. O, “Hökmdar və qızı”na yüksək dəyər verəndə əsərin həsr olunduğu mövzunun və bu mövzuya verilən bədii həllin müasirliyindən çıxış edirdi.

Məlumdur ki, “Hökmdar və qızı” taleyüklü bir zamanın hadisələrindən – XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının taleyindən, Rusiya və İranla münasibətlərindən, Azərbaycan xanlıqlarının birləşib işğalçı qüvvələrə qarşı birlikdə çıxmaq zərurətinin ortaya çıxdığı zamandan, lakin heç cürə birləşə bilməmələrindən, buna görə də Rus və İran imperiyaları tərəfindən asanlıqla udulmalarından bəhs edən tarixi bir əsərdir. İ.Əfəndiyev bu əsərində milli bütövlük uğrunda mübarizədən, xanlıqların birləşməsi ideyasının gerçəkləşə bilməməsindən danışır, onun psixoloji, ictimai-siyasi səbəblərini ortaya qoyur. Dramaturq sovet rejimindən qurtulmaq, müstəqilliyə qovuşmaq ərəfəsi və günlərində yazılmış bu əsərlə bizi düşünməyə, əldə etdiyimiz müstəqilliyi qorumaq üçün tarixən yol verdiyimiz səhvlərə yol verməməyə, milli ictimai şüur nümayiş etdirməyə səsləyir. Ulu öndər “Hökmdar və qızı”nın əsas dəyərini sənətkarın yüksək sənət dili, maraqlı süjet və fabula əsasında gerçəkləşdirdiyi müəllif mövqeyində, sənətkarın estetik idealında axtarır və axtardıqlarını çox dürüst ifadə edirdi: “Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir. Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir, xalqımızı bu istiqamətdə tərbiyələndirir və əsasən, gəncləri tərbiyələndirir. Bu baxımdan əsərin aktuallığı çox böyükdür. İndi hər bir adam bilsin ki, müstəqillik nədir və öz xalqının müstəqilliyini qorumayan adamların aqibəti necə olur” [3, s.143].

Heydər Əliyev müstəqilliyin əldə edilməsinin, “onun əbədiliyi və dönməzliyi”nin ictimai əsasını milli birlikdə görürdü. O, milli birliyin təminatçısı kimi, milli ictimai şüurun formalaşmasından, milli vətəndaşlıq düşüncəsinin tərbiyə edilməsinin zərurətindən danışır və XVIII əsrin sonlarında Azərbaycan xanlarının böyük əksəriyyətinin odu öz tərəfinə çəkməsinin, bütün gücü ilə yalnız öz hakimiyyətinin qayğısına qalmasının, bu düşüncə ilə də birləşməyin gerçəkləşə bilməməsinin, bütöv bir toplum olaraq işğalçı qüvvələrə qarşı çıxa bilməməyin səbəbini milli şüurun, vətəndaşlıq düşüncəsinin formalaşmamasında görürdü. Ulu öndər “Hökmdar və qızı”nda gerçəkləşən müəllif ideyasına aşağıdakı kimi təfsir verirdi: “Əsərin bir mənası da bundan ibarətdir ki, xalqımızı elə o vaxt, keçmiş tarixi dövrlərdə də bədbəxt edən içindəki çəkişmələr olub. Bu, həqiqətdir ki, xanlar o vaxtlar bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəli, iddiada olmasaydılar, biri o birisinə hörmət edib hamısı birləşsəydilər, buna nail ola bilərdilər... Ancaq bunlar bir yerdə olsaydılar, yığışıb hamısı desəydilər ki, gəlin bir nəfəri seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən bəlkə də xilas olmaq mümkün olardı... Ona görə də bizim xalqımızı, millətimizi birləşdirmək üçün, bu çəkişmələrə son qoymaq üçün də bu əsər çox ibrətamizdir” [3, s.143].

Ulu öndər “Hökmdar və qızı” tamaşasında hadisələrin inkişaf xəttini həyəcanla izləmişdi. Bu “həyəcan” tamaşa ilə bağlı təəssüratlarını yaradıcı heyətlə bölüşəndə də onu tərk etməmişdi. Həmin məqamda o, özü də bunu etiraf edirdi və “çox həyəcanlıyam” deyirdi.

Böyük həyat və siyasət yolu keçən ulu öndəri həyəcanlandıran nə idi? Tamaşa ilə bağlı təəssüratları bizi belə bir qənaətə gətirir ki, əsərdəki tarixi-siyasi gerçəklər yaşadığımız dövrün hadisələrini bir kino lenti kimi onun gözləri qarşısında canlandırırdı. Ulu öndər XVIII əsrin hadisələrinə baxarkən yaxın illəri – 90-cı illərin əvvəllərini – 1993-cü ilə qədərki hadisələri xatırlayırdı. Tarixdə və çağdaş zamanda baş verən hadisələrin tipoloji eyniliyi onun dərin bir sarsıntı yaşamasına və sarsıntılardan, həyəcandan doğan düşüncələrini yaradıcı kollektivlə bölüşməyə sövq edir. H.Əliyevə elə gəlirdi ki, səhnədə göstərilənlər 80-ci illərin sonları, 90-cı illərin əvvəllərinin hadisələridir, müəllif onları tarixə köçürüb, tarixin olayları kimi bizə təqdim edir. Ulu öndər tamaşa ilə bağlı təəssüratlarının həyəcanını aşağıdakı sözlərlə ifadə edirdi: “Elə sonrakı illəri – 1990, 1991 və 1992-ci illəri, 1993-cü

ilin iyun ayını xatırlayın. Dörd il bundan öncə Azərbaycanda vətəndaş müharibəsi qalxdı. Nə üçün? Çünki hakimiyyət uğrunda mübarizə gedirdi. Necə ki, o vaxtlar xanlar birləşə bilmirdilər ki, kim şah olacaqdır, burada da o dedi ki, Azərbaycanda mən hakim olmalıyam, o birisi dedi ki, mən olmalıyam, bir başqası dedi ki, yox, mən olmalıyam. Hərənin əlində bir silahlı dəstə, biri Gəncədən, biri Lənkərandan, biri ordan, biri burdan qalxdı, Azərbaycanı vurdular, dağıtdılar, vətəndaş müharibəsi getdi.

İndi dörd ildir ki, addım-addım, necə deyərlər, qarış-qarış yol gedirik ki, xalqımızı həmin vəziyyətdən çıxaraq. Bax, bunlara görə də mən hesab edirəm ki, bu əsər çox aktualdır" [3, s.144].

Ümummilli liderin bu mülahizələri çox dərin ümumiləşdirici mahiyyət daşıyır. O, milli birliyin formalaşmasında, dövlətçilik uğrunda mübarizənin sağlam yola düşməsində "Hökmdar və qızı"nın gücünə inam ifadə etməklə, əslində, böyük ədəbiyyatın cəmiyyət və millət həyatında oynaya biləcəyi taleyüklü rolu vurğulayırdı.

## Nəticə / *Conclusion*

Biz bəzən (bəlkə də çox vaxt) ədəbiyyatın ictimai həyata təsir imkanlarını lazımi qədər dəyərləndirmirik. Milli şüurun oyanmasında – təşəkkülündə və formalaşmasında ədəbiyyatın oynadığı rolu təsəvvür etmək bəzən bizə çətin olur. Ədəbi-mədəni fikir tariximizdə "Molla Nəsrəddin"in və "Füyuzat"ın, molla nəsrəddinçilərin və füyuzatçıların müstəsna mövqeyini birmənalı qəbul edir, lakin elə bil ki, qəbul etdiyimizin mahiyyətinin dərinliyinə varmırıq. Çünki biz "Molla Nəsrəddin"in və "Füyuzat"ın, eləcə də bu tipli qlobal ədəbi-mədəni hadisələrin yaratdığı ənənələri davam etdirməyə maraqlı olmuruq. Bizim zamanımızda ədəbiyyat daha çox estetik zövq hadisəsi kimi maraq doğurur, onun cəmiyyəti təşkil edəcək, formalaşdıracaq və irəli aparacaq gücünə diqqət etmirik, ya da sadəcə olaraq, onun belə bir gücünə inanmırıq. Əslində ədəbiyyatın bu gücünü işlək vəziyyətdə saxlamaq, onu aktiv şəkildə cəmiyyətə ötürəcək mexanizmlər haqqında düşünməliyik.

Ümummilli lider Heydər Əliyevin milli ictimai şüurun formalaşmasında ədəbiyyatın rolu haqqında, onun cəmiyyəti təşkil edəcək, formalaşdıracaq və irəli aparacaq gücü haqqında dərin mülahizələri bütöv, kamil bir ədəbiyyat strategiyası və hazırda da dövlətçiliyimizin siyasi xəttinin tərkib hissəsi kimi, bizi ciddi şəkildə düşündürməli, əməli fəaliyyətimizin kredosuna çevrilməlidir.

## Ədəbiyyat / *References*

1. Ağaoğlu, Ə. Üç mədəniyyət. – Bakı, 2017.
2. Cəfərov, N. Seçilmiş əsərləri. 5 cilddə. II cild. – Bakı: Elm. 2007.
3. Heydər Əliyev və mədəniyyət. 3 cilddə, II cild. – Bakı: Nurlar, 2008.
4. Salamoğlu, T. Müasir Azərbaycan ədəbiyyatı. – Bakı, 2012.

# Место азербайджанской литературы советского периода в литературной стратегии общенационального лидера Гейдара Алиева

**Теййар Саламоглу**
Доктор филологических наук
Азербайджанский Государственный Педагогический Университет
E-mail: tayyarsalamoglu@gmail.com

**Резюме:** В статье изъясняются некоторые аспекты литературной стратегии Общенационального лидера Гейдара Алиева. В частности, система осмысления литературы данного периода, который вызывает наибольший спор. Раскрывается мысль великого лидера о необходимости подхода к литературе этого периода по принципу историчности как методологическая отправная точка.
Оценка роли Гейдара Алиева в формировании идеи государственной независимости в литературе советского периода интерпретируется как фактор, определяющий ее современность.
**Ключевые слова:** стратегия, историчность, методологическое начало, современность, национальная независимость